Cəmşid Əmirov

# BRİLYANT MƏSƏLƏSİ

QANUN NƏŞRİYYATI

**Cəmşid Əmirov    BRİLYANT MƏSƏLƏSİ**

Janr: detektiv
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 456

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektorlar: | Bəsti Məmmədova |
| | Ülviyyə Emin |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-259-4

© Qanun Nəşriyyatı, 2022; 2026
© Cəmşid Əmirov, 1962

Müharibədən yenicə çıxmış sovet Bakısında mütəşəkkil cinayətkar dəstə hər cür hadisə törədir: narkotik, qumar, oğurluq, quldurluq, zorlama, qətl... Cinayətkar dəstənin başında duran Tapança Yədulla qorxunc olduğu qədər də maraqlı tipdir. Müəllifin reallıqdan götürdüyü bu obraz əsərin içində xəyalat kimi dolaşır.

Sovet milisi cinayətkarların izinə düşür. Müstəntiq Əli Rəsulovla Yədulla köhnə tanışdırlar. Bu tanışlıq düyünlərin açılmasına kömək edir. Ancaq həm də mane olur. Çünki qarşı tərəf də öz düşmənini tanıyır, taktikasını bilir və daha ehtiyatlı davranır.

Kitab bu iki parlaq obrazın şəxsində ədalətlə cinayətin savaşına həsr olunub. Bəs qalib kimdir? Sualın cavabını oxucu özü tapacaq.

"Brilyant məsələsi" Azərbaycanda ən çox maraq doğuran detektiv əsərlərdəndir.

# MÜNDƏRİCAT


YUMŞAQ VAQONDA ........ 6

**BİRİNCİ FƏSİL**

CİBGİR RANTİK ........ 18
BAĞ DƏFİNƏSİ ........ 31
QUMAR MƏCLİSİ ........ 40
CƏSUR GÖZƏTÇİ ........ 75
YƏDULLA QAÇIR ........ 86

**İKİNCİ FƏSİL**

EV OĞURLUĞU HAQQINDA İŞ ........ 107
OĞRU OĞLAN ........ 133
ÇƏKMƏSİLƏN ƏBDÜL ........ 138
QAN LƏKƏSİ ........ 147
MİLİS RƏİSİ ........ 155
ÜZLƏŞDİRMƏ ........ 170
AVTOMOBİLİN NİŞANƏLƏRİ ........ 174
RƏSULOVUN MÜLAHİZƏLƏRİ ........ 187
QANIN QRUPU ........ 198
GİZLİ MƏKTUB ........ 207
QƏHVƏYİ AVTOMOBİL ........ 225
HƏLİMƏNİN QONAĞI ........ 233
SARI QALSTUKLUNUN İZİ ........ 251
ALAQ OTU ........ 265
NAMƏLUM CƏSƏD ........ 277

İNƏK OĞRUSU ........ 283
AVARA ........ 289
QUMAR QURBANI ........ 299
KƏLƏFİN UCU ........ 304
SAFURƏ XALANIN KİRAYƏNİŞİNİ ........ 312
TƏSADÜFİ GÖRÜŞ ........ 323
HƏLİMƏNİN ƏRİ ........ 331
MƏKTUB DAŞIYANIN MÜJDƏSİ ........ 337
RÜŞVƏTXOR MÜDİR ........ 339
MÜASİR HACI QARA ........ 348
TÜFEYLİLƏRİN AQİBƏTİ ........ 357
YENƏ VAQONDA ........ 364

## ÜÇÜNCÜ FƏSİL

TƏZƏ MÜSTƏNTİQ ........ 367
DAYANDIRILMIŞ İŞ ........ 370
FIRILDAQÇI MƏMMƏDAĞA ........ 377
PUL TƏLƏSİ ........ 402
FIRILDAQÇININ İZİ İLƏ ........ 406
SÜRÜCÜ LƏTİF ........ 409
SAXTA BRİLYANT ........ 424
ONUNCU ÜZÜK ........ 428
ÜÇ CORAB ........ 436
İKİ AY YARIM ƏVVƏL ........ 446

## YUMŞAQ VAQONDA

Səhər yenicə açılmışdı. Şərqdə, sanki mavi göylə dənizin birləşdiyi yerdən yavaş-yavaş boylanmağa başlayan isti yaz günəşini qocaman Xəzərin yaşımtıl-göy suları xüsusi bir gözəlliklə işıqlandırırdı. Günəş mis kimi qızarmış dairəvi lövhəyə, ləpəsiz dəniz isə gümüş pul kimi parıldayan ucsuz-bucaqsız səhraya bənzəyirdi.

Bir dəqiqə bundan əvvəl Ələt stansiyasına gələn 59 nömrəli Astara-Bakı qatarı Xəzər sahili boyunca salınmış dəmir yolu ilə irəliləyərək neft şəhərinə yaxınlaşırdı.

Yumşaq vaqonun bələdçisi pəncərədən boylanıb günəşi ayna kimi özündə əks etdirən dənizə ötəri nəzər saldı, sonra birinci kupeyə yaxınlaşdı, yumruğu ilə qapını döyərək, sərnişinləri yuxudan oyatdı:

– Yoldaş sərnişinlər, qalxın, Bakıya az qalıb. Tez olun, yorğan-döşəyi təhvil verin.

Bələdçi daha burada dayanmayıb, ikinci kupenin qapısına tərəf getdi, o biri sərnişinləri də oyatmağa tələsdi.

Tez oyanmağa öyrəşməyən sərnişinlərdən bəziləri narazılıq edərək, dəmiryol qaydalarından şikayətləndilər. Digərləri əl-üzlərini yumaq üçün kupedən dəhlizə çıxdılar. Başqaları isə yavaş-yavaş şeylərini yığışdırıb sahmana salmağa başladılar.

Yeddinci kupedə də şikayətlənən vardı. Bu, ucaboylu, arıq bədənli, gözlərinə eynək taxmış bir kişi idi. Onun daz başı, quş dimdiyinə oxşayan nazik və uzun burnu, çoxdan bəri dəllək üzü görməyən qırmızı saqqalı, qədim qoçular kimi uzun, burma bığları və sarımsaq yeməkdən saralmış çürük, xırda dişləri vardı. O, yuxudan doymadığı üçün deyinə-deyinə döşəkağını və balışüzünü büküb yol bələdçisinə təhvil verdi, döşəklə balışı bürmələyib, yuxarı taxçaya qoydu. Başqa sərnişinlər kimi o da əl-üzünü yumaq üçün dəsmalını çiyninə atdı, diş fırçasını və sabununu götürüb bayıra çıxdı. Lakin tezliklə geri qayıtdı. Özünə bəraət qazandırmaq istəyən adamlar kimi and içən tərzdə yol yoldaşlarına dedi:

Əlüzyuyanın qarşısında adam çoxdur. Mənim də yamanca xasiyyətim var, kəmhövsələyəm, növbəyə durmağı sevmirəm, sonra yuyunaram.

Eynəkli kişi sərnişinlərin ona əhəmiyyət vermədiklərini görüb çamadanını açdı, paltarlarının arasından narıncı cildli qəşəng bir kitab çıxartdı. Kişi kitabı açaraq özünü pəncərəyə tərəf verdi. Bir papiros yandırıb damağına aldı və arxasını yol yoldaşlarına çevirib mızıldaya-mızıldaya kitabı böyük maraqla oxumağa başladı.

Kupenin digər sərnişinləri – ortaboylu, qarabəniz kişi, başına ağ haşiyəli kəlağayı örtən qız və həddindən ziyadə kök qadın əl-üzlərini yuduqdan sonra şirin-şirin söhbət edirdilər.

Bu zaman dəhlizdən keçən sarışın saçlı bir qız kupenin qapısını açdı. O, ağ milis forması geymişdi. Çiyinlərinə də milis leytenantı poqonları taxmışdı. Qız ədəblə

salam verib, sərnişinlərə ötəri nəzər saldı. Qarabəniz kişiyə bir az artıq diqqət yetirdi. Sonra hamıya müraciətlə soruşdu:

– Bağışlayın, saat neçədir?

Hamının əvəzinə qarabəniz kişi cavab verdi:

– Altıya on dəqiqə... xeyr səhv edirəm, on iki dəqiqə qalıb.

– Çox sağ olun. Yatıb yuxuya qalmışam, – deyə sarışın saçlı qız qapını örtdü.

– Xeyir ola, görəsən, bu milis zabiti nə üçün gəlmişdi? – deyə eynəkli kişi heç kimə müraciət etmədən soruşdu.

– Yəqin vaqonda oğurluq-zad olub, indi oğrunu axtarırlar, – deyə dolu qadın eynəkli kişinin sualına cavab verdi.

– O öz vəzifəsini yerinə yetirir.

Eynəkli kişi milis işçilərindən şikayətləndi:

– Məgər vəzifəni bu cür yerinə yetirirlər? Bu qız nə bilir ki, biz kimik? Bəlkə elə gecə siz yatanda vaqonda oğurluğu mən eləmişəm? Axı, nə üçün bu milis leytenantı kupemizi yaxşı yoxlamadı. Qapını açıb içəri girməsi ilə çıxıb getməsi bir oldu. Milis belə işləyəndə, əlbəttə, oğru tapılmaz, xuliqan tutulmaz, əliəyri adamlar da istədiklərini edərlər.

Bu an qarabəniz kişinin dodaqaltı istehza ilə gülümsədiyindən heç kim xəbər tutmadı.

Eynəkli kişi bununla kifayətlənmədi, ürəyi dolu adamlar kimi yenə də milis işçiləri və oğrular haqqında söhbəti davam etdirdi:

– Bu andıra qalmış Astara yolu yaman korlanıb. Dələduzların əlindən tərpənmək olmur. Bilmirəm, milis zabitləri nə ilə məşğuldurlar. Elə ortada yeyib qıraqda gəzməyi bilirlər. Havayı yerə maaş alırlar. İki həftə bundan əvvəl mən Astaraya gedəndə vaqonumuzda bir hadisə baş verdi. Gecə kimsə bir kolxozçunun xurcununu oğurladı. Bir haray qopdu ki, gəl görəsən.

– Nə oldu, xurcun tapılmadı? – deyə dolu qadın soruşdu.

– Yox əşi. Haradan tapılacaq. Milisə xəbər verdik, gəlib sorğu-sual etdilər. Bayaq bura gələn milis leytenantı kimi başdansovdu o yan-bu yanı axtardılar, bir-iki nəfəri dindirdilər, uzun-uzadı protokol yazdılar, kiminin dədə-nənəsinin nə dərdlə öldüklərini də soruşdular. Ancaq heç bir şey çıxmadı. Oğru tapılmadı – deyə kişi sanki elə bu dəqiqə onun da şeylərini oğurlayacaqlarmış kimi bərk-bərk çamadanının dəstəyindən yapışdı.

Dolu qadın onun sözünü təsdiq etdi:

– Siz düz buyurursunuz, qardaş, milis yaxşı işləmir. Bir ay bundan əvvəl qonşumuzun evini yarmışdılar. Milis işçilərini çağırdılar. Onlar nə qədər çalışdılarsa da, heç bir şey edə bilmədilər. Çox adam dindirdilər, iz axtaran it gətirdilər, qonşularla söhbət etdilər. Ancaq onlar oğurlanan mallar əvəzinə bilirsiniz nə tapdılar?

– Nə – deyə kişi soruşdu.

– Oğrunun barmaq izlərini.

– Bəs oğrunun özü?

– Rəhmətliyin oğlu, nə qoyub nə axtarırsınız? İndiki zamanda oğurlanan mal, arabadan düşən qovun-qarpız kimidir. Düşdü, deməli, sənin deyil...

Özünə həmsöhbət tapan eynəkli kişi sevindi. Yenə milis orqanlarını pisləməyə cəhd etdi:

– Bilirsiniz, milis nə üçün pis işləyir?

– Nə üçün?

– Çünki onlar təcrübəsizdirlər. Adam gərək öz sənətinin, öz ixtisasının mahir ustası olsun. Milislər isə hələ yaxşını pisdən ayıra bilmirlər. Çox zaman əliəyriləri bir tərəfdə qoyub, düz adamlardan yapışırlar. Bəli, bəli, təəccüblənməyin. Buna görə heç də təsadüfi deyildir ki, bir çox cinayət işləri aylarla süründürülür, iş uzanır, qovluqlar kağızla dolur, cinayət işi açılmamış qalır.

Eynəkli kişi yol yoldaşlarının etiraz etmədən onu dinlədiklərini görüb sözünə davam etdi:

– Bacı, mən bu yaşadək çox kitab oxumuşam. Qabaqlar Amerikada Nat Pinkerton adlı məşhur bir xəfiyyə yaşayırdı. Bütün dünyada onun kimi bacarıqlı, bilikli xəfiyyə yox imiş. Çətinliyə düşən hər kəs Pinkertonun yanına gəlirmiş. O da böyük ustalıqla hər hansı bir cinayətin üstünü açırmış. Buna görə də hamı onu çox sevirdi.

– Yəni oğrular da onu sevirdilər? – deyə bu söhbəti diqqətlə dinləyən qarabəniz kişi istehza ilə soruşdu.

Eynəkli kişi qarabəniz kişinin sözlərindəki istehzanı hiss etmədi. Ciddi cavab verdi:

– Xeyr, Pinkerton oğruların, quldurların, yolkəsənlərin düşməni idi.